Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 17 (1145) 28 yanvar - 29 yanvar 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# LERİK - 2015

(əvvəli ötən sayımızda)

**Bu gün Azərbaycanın regionları içərisində cənub bölgəsinin ən ucqar guşələrindən biri olan Lerik rayonunun ictimai-sosial durumu təbii ki, təkcə ölkə prezidentinin diqqət mərkəzində durmaqla deyil, həm də bu bölgənin daha çox inkişaf etdirilməsi ilə də diqqəti çəkir. Yəni Azərbaycan prezidenti cənab İlham Əliyev ölkənin bütün regionlarının, xüsusilə dağlıq ərazilərinin inkişaf etdirilməsinə, burada iqtisadi uğurlara imza atmağa xüsusi önəm verir. Və bu da ondan irəli gəlir ki, ölkənin dağlıq ərazilərində coğrafi şəraitə uyğun olaraq iqtisadiyyatın yenidən qurulması regionun tələblərinə və imkanlarına uyğun sosial obyektlərin yaradılıb istifadəyə verilməsi dövlət qurumlarının əsas vəzifələrindən biri olmalıdır.**

Həqiqətən də yeni ilin birinci ayının təqvimini gözdən keçirəndə onda diqqəti daha çox ölkə prezidenti cənab İlham Əliyevin keçirdiyi müşavirə və konfransların təkcə sayı yox, həm də bu rəsmi tədbirlərdə səslənən fikirlərin, irəli sürülən təkliflərin əhəmiyyəti özünə çəkir. Aydın şəkildə görünür ki, Azərbaycanın iqtisadi, sosial səviyyəsinin yüksəldilməsi, Azərbaycan insanının dünya çapında öz mövqeyini möhkəmləndirməsi ölkə prezidentinin əsas məram və məqsədidir. Ona görə də bütün dünyanı ağuşuna alan iqtisadi böhranın dalğası Azərbaycanı da müəyyən qədər öz təsir dairəsinə salıb və deməli, görülən bütün tədbirlər də həmin o təsiri minimum həddə endirmək Azərbaycan vətəndaşını iqtisadi böhrandan tez bir zamanda çıxarmaq istəyinə xidmət edir.

**"Regionların inkişafı Proqramının icrası ilə bağlı əvvəlki dövrdə başladığımız işlər bu gün artıq reallaşır və özünü büruzə verir. Regionlarda bütövlükdə işlər yaxşı gedir. Mən bu bölgədə dəfələrlə olmuşam.**

**Əminəm ki, bütün bu zona müasir turizm zonası kimi özünü göstərəcək. Bunu etmək üçün indi bütün infrastruktur layihələri icra edilir, yollar çəkilir".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



Bəli, regionlarımızın inkişafına dair dövlət proqramının əhatə etdiyi 2018-ci ilə qədər olan zaman kəsiyində həyat səviyyəsinin planlı və möhkəm baza üzərində yüksəldilməsi istiqamətində atılan addımların bir şərti də hər bir ailənin büdcəsinin möhkəmləndirilməsi və sabit olmasıdır. Yəni vətəndaş öz istək və tələblərini reallaşdırmaq imkanında olmalıdır. Bu mənada bütün regionlarımız kimi Lerikdə də Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırovun rəhbərliyi altında fəaliyyət göstərən Şura rayonun cari və perspektiv planını işləyib hazırlayıbdır. Həmin planda əsas məqsəd əhalinin sosial tələblərini qısa vaxtda gerçəkləşdirmək ön cərgəyə keçirilib. Ona görə də bu gün Lerik rayonunda coğrafi şəraitin tələblərinə uyğun olan və mühəndis layihələri əsasında hazırlanmış real tikinti abadlıq işləri aparılır. Bu işlərin bir xətti də rayonun elektrik, qaz, su telekommunikasiya məsələlərinin qısa bir vaxtda həll edilməsidir. Deməli, söylədiyimiz zəruri məsələlərin, yəni elektrik, qaz, su telekommunikasiya problemlərini çözmək üçün icra hakimiyyətinin başçısı Rövşən Bağırovun bilavasitə rəhbərliyi ilə xüsusi layihə ortaya qoyulub. Bu layihədə də əsas məqsəd Lerik rayon sakinlərinin istər şəhər, istərsə də kəndlərdə içməli su ilə təminatı davamlı elektrik, rabitə əlaqələrinin olması, eləcə də tez bir zamanda hər bir evin qazlaşdırılmasıdır.

Bu gün Lerik rayonunda aparılan tikinti-abadlıq işlərinin əsas görünən tərəflərindən biri də həmin işlərin rayonun ümumi milli arxitekturasına, regionun coğrafiyasına uyğun olmasıdır. Yəni bu işlərin hər birinin kökündə millilikla yanaşı, coğrafi şəraitin tələbləri də dayanıb. Bildiyiniz kimi, Lerik rayonu yüksəklikdə yerləşdiyindən burada təbii hadisələrin təsiri daha çox özünü büruzə verir. Bu mənada tikilən, abadlaşdırılan hər bir sosial obyekt və yaxud çəkilən hər bir yeni yol söylədiyimiz tələblərə cavab verməlidir. Bir növ özünün davamlılığını, uzun ömürlülüyünü sığortalamalıdır. Elə rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov cənablarının da bu işlərlə məşğul olan hər kəsdən əsas tələbi işin keyfiyyətli və uzun ömürlü olmasıdır. Deməli, bu da mövcud iqtidarın Azərbaycan insanına, Azərbaycan coğrafiyasına olan diqqətin bir nümunəsidir.

Azərbaycan prezidenti cənab İlham Əliyevin keçirdiyi sonuncu konfransda vurğuladığı kimi, bu gün bütün diqqət regionlara və regionların mövcud imkanlarına yönəldilməlidir. Hər kəs, xüsusilə dövlət qurumlarına rəhbərlik edənlər birmənalı şəkildə yerli şəraitə uyğun olan layihələrin gerçəkləşdirilməsinə təşəbbüs göstərməli, dəstək verməlidir. Yəni çalışmaq lazımdır ki, regionlarda yaradılan işgüzar şərait insanları həm maddi, sosial baxımdan özünə bağlasın, onların ehtiyaclarını ödəsin, həm də bu regionun inkişafına stimul olsun. Bax, bu mənada Lerik rayonunda ötən il həyata keçirilən tədbirlər arasında əsas diqqət yeni iş yerlərinin açılmasına və insanların həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmişdir. Əgər statistikaya diqqət yetirsək onda məlum olar ki, ötən il rayonda təqribən 350 daimi iş yeri açılmışdır. Bu da ailə tərkibi ilə hesablansa elə təqribən bu qədər ailənin qazanc yeri əldə etməsi deməkdir. Bir az da xırdalasaq onda məlum olar ki, ötən il Lerik rayonunda 350 ailə daimi iş yeri əldə etməklə öz büdcəsini formalaşdırıb möhkəmlətmək imkanı qazanıbdır. Təbii ki, bu da bir kənd rayonu üçün uğurlu göstəricidir. Ümumiyyətlə isə ötən il rayonda təqribən 1200 nəfər işlə təmin olunmuşdur ki, bunlar da mövsümi işlər olsa belə hər halda regionun inkişafına öz müsbət təsirini göstərən amillərdən biri kimi diqqət çəkəndir.



Azərbaycanın cənub bölgəsinin incisi sayılan Lerik rayonunda həyat səviyyəsinin yüksəldilməsi üçün görülən köklü işlər arasında diqqəti çəkən məsələlərdən biri də bu bölgənin yol infrastrukturunun yaxşılaşdırılması, yenidən qurulmasıdır. Təbii ki, bunun üçün həm dövlət büdcəsindən, həm də yerli imkanlardan istifadə olunmuşdur. Ümumilikdə isə Lerik rayonu üçün yolların daimi işlək vəziyyətdə olması, onların müasir tələblərə cavab verməsi bir problem kimi rayon icra hakimiyyəti başçısının və onun komandasının əsas diqqət yetirdiyi sahə olaraq qalır. Elə ilin bu qış fəslində də barəsində söhbət açdığımız faktın nə qədər önəmli olduğu bir daha ortaya çıxır.

**(ardı var)**

***Ceyhun RÜSTƏMOV***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ